*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 265-272* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.265*

# Süni intellekt, rəqəmsal ədəbiyyatşünaslıq və Nizami Gəncəvinin humanist fəlsəfəsi

**Zakirə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: zakiraalieva7@gamil.com
ORCID ID 0009-0005-0586-6211

**Annotasiya.** XXI əsrdə qarşıda duran ən əsas vəzifələrdən biri elmi mühitin yaradıcılıq resurslarının ictimai həyata inteqrasiyası, real informativ qüvvə faktoruna çevrilməsidir. XII əsrdə Nizami Gəncəvi tərəfindən irəli sürülən "qüvvət elmdədir" kimi bəşəri dəyər daşıyan hikmətinin XXI əsrin aparıcı ictimai fikrinə çevrilməsi bu günün reallığıdır. Milli dəyərlərin qlobal texnologiyalarla harmonik sintezindən yaranan mütənasibliyin mərkəzi yenə "qüvvət elmdədir" anlayışıdır. Süni intellekt imkanlarının bu şəfəqləri XXI əsrin insanlarına, bəşəriyyətə ədəbiyyatşünaslıq elminin dili ilə çatdırmaqda faydalı ola bilər. Bu tədqiqatda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ədəbiyyatşünaslıq və süni intellekt sahəsində fəaliyyət mütənasibliyi Nizami Gəncəvinin fəlsəfəsi ilə süni intellektin kəsişməsi müstəvisində araşdırılır. Nəticə etibarilə XXI əsrdə ədəbiyyatşünaslıq elmi sahəsində süni intellekt zəkasının tətbiqinin həm imkanları və yenilikləri, həm də məsuliyyətlərindən bəhs edilir. Qeyd edilir ki, insanı və cəmiyyəti kamilliyə aparan güc elmdir, onun ən son təcəssümü isə süni intellektdir.
**Açar sözlər:** Nizami Gəncəvi, ədəbiyyatşünaslıq, Ədəbiyyat İnstitutu, süni intellekt, etika, elm fəlsəfəsi

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2025; qəbul edilib – 18.09.2025

# Artifical intelligence, digital literary studies and Nizami Ganjavi's humanistic philosophy

**Zakira Aliyeva**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: zakiraalieva7@gamil.com
ORCID ID 0009-0005-0586-6211

**Abstract.** One of the most important tasks facing the 21st century is the integration of the creative resources of the scientific environment into public life, its transformation into a real informative force factor. The transformation of the wisdom of "power is in science", which carries human values, put forward by Nizami Ganjavi in the 12th century, into the leading public idea of the 21st century is today's reality. The center of the proportionality arising from the harmonious synthesis of national values with global technologies is again the concept of "power is in science". It can be useful to convey these dawns of the possibilities of artificial intelligence to the people of the 21st century, to humanity, through the language of literary criticism. This study examines the proportionality of the activities of the Institute of Literature named after Nizami Ganjavi in the field of literary criticism and artificial intelligence at the level of the intersection of Nizami Ganjavi's philosophy and artificial intelligence. As a result, both the possibilities, innovations and responsibilities of

the application of artificial intelligence in the field of literary criticism in the twenty-first century are discussed. It is noted that the power that leads humans and society to perfection is science, and its latest embodiment is artificial intelligence.
**Keywords:** Nizami Ganjavi, literary studies, Institute of Literature, artificial intelligence, ethics, philosophy of science

**Article history:** received – 11.09.2025; accepted – 18.09.2025

## Giriş / *Introduction*

XXI əsrdə qarşıda duran ən əsas vəzifələrdən biri elmi mühitin yaradıcılıq resurslarının ictimai həyata inteqrasiyası, real informativ qüvvə faktoruna çevrilməsidir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın [1] təsdiq edilməsi haqqında 16 yanvar 2025-ci il tarixli Fərmanı, "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın [2] təsdiq edilməsi haqqında 19 mart 2025-ci il tarixli Sərəncamı birbaşa elmin inkişafı və onun cəmiyyətə, dövlətçilik və azərbaycançılıq ideallarına, elmi biliklərin qlobal informasiya mühitinə inteqrasiyasına imkanlar yaradan yeni strateji mənbələrdir.

Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi bu mötəbər mənbələrə müvafiq olaraq Azərbaycan Milli Elmlər Akademiyasında da bu istiqamətlərdə geniş fəaliyyət proqramları həyata keçirilir. 2023-cü ilin yanvar ayında təsis edilmiş AMEA RH aparatının Elektron Akademiya şöbəsi Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, "Akademiyada rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişlənməsi istiqamətində bir çox yeniliklərə və uğurlara imza ataraq özünü doğrultdu".

## Əsas hissə / *Main part*

"Elektron Akademiya" şöbəsinə rəhbərlik edən riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranovun bildirdiyi kimi, şöbədə AMEA İnsan Resursları və Elmmetrik Məlumatlar Bazası (İREMB), AMEA Rəqəmsal Elmi İnformasiya Resursları Sistemi (REİRS) və Sözlərin Universal Funksionallıqla İşlənilməsi (AMEA SUFİ) sisteminin yaradılması, AMEA İREMB bazasında alimlərin "Google Scholar", "Scopus", "Web of Science" və s. bazalardakı elmmetrik göstəricilərinin qeydə alınması, gələcəkdə REİRS sisteminin isə Avropa e-infrastrukturu olan Open AIRE sisteminə uyğunlaşdırılması, Microsoft Azure layihəsi çərçivəsində yaradılmış səsyazma studiyasının [5] Azərbaycan dilinin tanınması, təhlilinə və işlənilməsinə süni intellekt texnologiyalarının tətbiqinə yeni imkanlar yaratması bu uğurlardandır.

Bu yaxınlarda isə AMEA Rəyasət Heyətinin qərarı ilə yeni texnoloji reallıq şəraiti və fəaliyyət istiqamətlərinin genişliyi nəzərə alınaraq, "Elektron Akademiya" şöbəsinin adı Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsi kimi təsdiq edilib [7].

Rəqəmsal transformasiya proseslərinin sürətlə inkişaf etdiyi müasir dövrdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda da ədəbiyyatşünaslıq sahəsində aparılan elmi tədqiqat proseslərində yeni texnologiyaların imkanlarından faydalanmaq istiqamətində işlər görülməkdədir. Bu gün Azərbaycan Milli Elmlər Akademiyası İnsan resursları və elmmetrik verilənlər bazası platformasında interaktiv idarəetmə sistemindən istifadə etməklə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ən müxtəlif nüfuzlu beynəlxalq elmi bazalar üzrə elmi reytinq göstəricilərini izləmək mümkündür.

AMEA Rəyasət Heyətinin qərarı ilə Ədəbiyyat İnstitutunda İnternet-intellekt nəzəri-eksperimental laboratoriyası (2000) əsasında təşkil edilib, sonralar Elmi informasiya və

biblioqrafiya adlandırılan şöbə (2002) Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslıq elminin populyarlaşması proseslərinin modernləşməsi proseslərinə rəhbərlik etmək, Azərbaycan ədəbiyyatının rəqəmsal resurslarının yaradılması, Azərbaycan ədəbiyyatşünaslığına dair ənənəvi, rəqəmsal formatlarda informativ və biblioqrafik resursların istehsalı, Ədəbiyyat İnstitutunun www.literature.az saytının idarə edilməsi və s. istiqamətlərdə fəaliyyətini uğurla davam etdirməkdədir.

Rəqəmsal transformasiya proseslərinin sürətlə inkişaf etdiyi müasir dövrdə ədəbiyyatşünaslıq elminin yeni texnologiyaların və süni intellektin imkanlarından faydalanması zərurətini, fəaliyyət sahələrinin modernləşməsi imkanlarını nəzərə alan İnstitutun direktoru akademik İsa Həbibbəylinin təşəbbüsü ilə şöbənin adı uyğun olaraq Rəqəmsal ədəbiyyatşünaslıq, süni intellekt və elektron xidmətlər şöbəsi kimi müəyyən edildi.

Hazırda, şöbənin fəaliyyətinin əsas məqsədi ədəbiyyatşünaslıq sahəsində tədqiqatların rəqəmsal mühitdə tanınmasına nail olmaq, süni intellekt texnologiyalarından istifadə etməklə tədqiqat proseslərinə yeni yanaşmalar formalaşdırmaq və elmi ictimaiyyətə müasir elektron xidmətlər təqdim etməkdir. Şöbə əsasən ədəbiyyat elmini müasir dövrün çağırışlarına uyğunlaşdıraraq onun populyarlaşmasına, beynəlxalq elmi mühitdə tanıdılmasına və rəqəmsal inkişafa inteqrasiyasına xidmət edir.

– *Azərbaycan ədəbiyyatşünaslığının rəqəmsallaşdırılması;*
– *Ədəbi irsin qorunması və geniş ictimaiyyətə əlçatan olması;*
– *Süni intellekt vasitəsilə elmi təhlillərin aparılmasının dəstəklənməsi;*
– *Gənc tədqiqatçılar və tələbələr üçün rəqəmsal alətlərdən istifadənin təşviqi;*
– *Süni intellekt texnologiyalarının tətbiqi ilə elektron mətn korpuslarının hazırlanması;*
– *Ədəbiyyatın rəqəmsal analiz üsullarının tətbiqi;*
– *Ədəbiyyat nümunələrinin avtomatik təhlili üçün alqoritmlərin işlənməsi;*
– *Mətnlərin tematik və semantik analizi və s.* [16]

Ədəbiyyatşünaslıqda süni intellektdən istifadə imkanları maraqlı tədqiqat işləri aparmağa imkan verir. Belə ki, mətnlərin təhlilində müəllif üslubunun xarakterik xüsusiyyətlərini, müəyyən sözlərin, ifadələrin və ya sintaktik konstruksiyaların istifadəsini; alqoritmlərdən istifadə etməklə mətnin ehtimal olunan müəllifini və ya plagiatlığını, mətn mövzularını avtomatik müəyyən edə bilər. Nadir və ya unikal mətn nümunələrinin aşkarlanması, əsərlərin janr, üslub və ya dövrə görə qruplaşdırılması, müəlliflər, əsərlər və ədəbi cərəyanlar arasında əlaqə axtarışı da süni intellektin yaratdığı imkanlar, tədqiqatlar üçün yeni üfüqlər sırasındadır.

Neyroşəbəkələrin inkişafı bədii yaradıcılığa, ədəbiyyatşünaslıq elminə necə təsir edir, süni intellektdən parlaq obrazlar, məntiqli təhlillər, tənqidi mülahizələr gözləmək lazımdırmı və ya narahatlığa əsas varmı, ədəbi-mədəni mühitdə, elmi yaradıcılıqda, mənəvi-əxlaqi dəyərlərin mühafizəsində Süni intellektin intellektual müdaxiləsinin nəticələri necə ola bilər? Bütün bu məsələlər təkcə alimləri deyil, bütün bəşəriyyəti düşündürən məsələlərdir. Artıq bu gün qlobal internet qafiyə generatorları, söz və ifadə xəritələri, assosiativ sözlər silsiləsi və sinonimlər, antonimlər lüğətləri və s. süni intellektin prototipləri təklif edilirsə, Süni intellekt sistemləri geniş miqyaslı məlumatları emal edir, interaktiv axtarışlarda fəal istifadə olunursa, ədəbiyyatşünaslığımızda da onun tətbiqinə ehtiyac olan sahələr kifayət qədərdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun Rəqəmsal ədəbiyyatşünaslıq, Süni intellekt və Elektron xidmətlər şöbəsində yuxarıda adıçəkilən istiqamətlərdə elmi yaradıcılıq işlərinin əhatəsinin genişləndirilməsi nəzərdə tutulur.

Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu Nizami Gəncəvinin adını daşıyır. Eyni zamanda institutda AMEA-nın müxbir üzvü Nüşabə xanım Araslının rəhbərlik etdiyi beynəlxalq səviyyədə tanınan Nizamişünaslıq şöbəsi fəaliyyət göstərir ki, burada nizamişünas alimlər – Zəhra Allahverdiyeva, Təhminə Bədəlova, Vəfa Hacıyeva, Yelena Teyer, Hürnisə Bəşirova uğurlu tədqiqatlar aparırlar.

Nizamişünaslığın inkişafında hər bir dövrün öz spesifik xüsusiyyətləri mövcud olmuşdur. Son onillik dövrün iki mühüm hadisəsi mövqeyindən yanaşsaq, Azərbaycan Respublikası Prezedentinin Sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi nizamişünaslığın tarixində yeni mərhələ açmışdırsa, 19 mart 2025-ci il tarixli "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" haqqında Sərəncam artıq formalaşmaqda olan daha yeni elmi-texnoloji mərhələnin reallaşacağından xəbər verir.

Hazırda şöbədə Nizami Gəncəvinin həyatı, dövrü, ədəbi mühiti haqqında dəqiq elmi araşdırmaların aparılması, şairin əsərlərinin əlyazmalarının dürüst elmi-tənqidi mətnlərinin üzə çıxarılması, bədii irsinin ideya-fəlsəfi-poetik xüsusiyyətlərinin daha geniş aspektdə tədqiqi, poemalarının dünya xalqlarının dilinə tərcümələri və nəşri işlərinin yenilənməsi istiqamətində mühüm işlər aparılmaqdadır [4].

Süni intellektin elmi tədqiqatlarda, araşdırma proseslərində tətbiq edildiyi, istifadə olunduğu bir vaxtda dövrümüzün spesifik xüsusiyyətləri mövqeyindən ədəbiyyatşünaslıq elmimizin və dahi Nizaminin humanist missiyasına bir baxış etməyi məqsədəuyğun saydıq.

XII əsrdə Nizami Gəncəvi tərəfindən irəli sürülən "qüvvət elmdədir" adlı bəşəri dəyər daşıyan hikmətinin XXI əsrin aparıcı ictimai fikrinə çevrilməsi bu günün reallığıdır. Elmi tərəqqinin əsas dayaqlarından biri olan bu fikir, əsrlərin sınağından keçərək xüsusilə süni intellekt əsrində yeni məna çalarları qazanır və bu gün də bəşəriyyət üçün öz dəyərini qoruyur.

Mahiyyətcə bəşər övladının həqiqi gücünün fiziki qüvvədə, var-dövlətdə yox, elmdə, bilikdə, idrakda olduğunu süni intellektin həyatımıza daxil olması ilə daha yaxından dərk edirik.

Süni intellekt özü insan idrakının, elmi intellektin məhsulu olsa da, bu texnologiya, Nizami Gəncəvinin fikirləri anlamında bilik toplamağın və biliklərin tətbiqindən əldə edilən nəticələrin parametrlərini göstərən bir qüvvət koordinatıdır. Biliklərlə silahlanmış insanı güc mənbəyi hesab ediriksə, o zaman süni intellekt biliklərin sistemləşdirilmiş, sürətli və praktik gücə çevrilmiş formasıdır. Artıq süni intellekt məlumatları analiz edir, proqnoz verir, yeni biliklər yaradır – yəni bilikdən "qüvvət" hasil edir. Qüvvət isə bilikdə, elmdədir.

Bir daha Nizami Gəncəvi irsinə münasibətdə məsələyə yeni baxış müstəvisində nəzər salaq:

Süni intellektin qüvvə kimi istifadəsinin, tətbiqinin bəşəriyyət üçün həm müsbət, həm də mənfi tərəfləri ola bilər. Başqa sözlə, Nizami Gəncəvinin "qüvvət elmdədir" hikmətində yalnız elm deyil, həm də onun doğru istifadəsinin vacibliyi və narahatlığı da görünür. Nizaminin humanist yanaşması ilə elm insanı kamilləşdirir, xeyirxah məqsədlərə çağırırsa, narahat dünyamızda süni intellektdə vəhdətləşən elmi biliklərin daim humanist missiya daşıyacağına əmin olmaq çətindir.

Nizami hikmətinə süni intellektin imkanları ilə yanaşıldıqda, yalnız elm insana xidmət edərsə, həqiqi güc olar düşüncəsi ilə "Xeyir və Şər" silsiləsindən daha çox mövzular haqqında danışa bilərik.

Əslində Nizami Gəncəvinin "Qüvvət elmdədir" kəlamı bu gün anladır ki, süni intellekti gücə çevirən təkcə texnologiya yox, onu idarə edən elm və əxlaqdır. Hər iki mənada "Qüvvət elmdədir" kəlamı süni intellekt dövrünün aktuallığına çevrilməkdədir. Çünki informasiya əsrində güc artıq bilik və texnologiyaya sahib olmaqla ölçülür. Süni intellekt insan idrakının zirvəsi sayılan elmin gücünü praktiki müstəviyə daşıyır.

Süni intellekt kimi güclü alətlərdən istifadə edərkən, Nizaminin humanist fəlsəfəsi rəhbər tutulmalıdır. "Qüvvət elmdədir" çağırışı bugünkü cəmiyyət üçün həm də məsuliyyət və etik dəyərlərin qorunması anlamına gəlir. Süni intellekt əsrində biz Nizaminin ideyasını yeni bir prizmadan görürük: insanı və cəmiyyəti kamilliyə aparan güc elmdir, onun ən son təcəssümü isə süni intellektdir.

Göründüyü kimi, süni intellekt Nizaminin humanist ideyalarını normativ çərçivəyə çevirmək imkanı verir. Bu normativlərə görə elmi tədqiqatlarda ədalət, şəffaflıq, hesabatlılıq, təhlükəsizlik və sosial təsirlər önə çəkilməlidir. Süni intellekt kimi bilik daşıyıcısı olan texnologiyalar yalnız texniki

performansına görə deyil, həm də insanın hər hansı məcrada intellektual inkişafına görə qiymətləndirilməlidir. Nizaminin xəbərdarlıqları Süni intellekt üçün də keçərlidir: nəzarətsiz tətbiqlər, sosial manipulyasiya və etik pozuntular cəmiyyətə zərər vura bilər.

*Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,*
*Yer üzünün fatehi ədalətdir, ədalət!* [10]

*Nifaq olan yerdə fəlakət də var,*
*Səadət günəşi birlikdən doğar.* [11]

Nizaminin ağıl, müdriklik və əxlaqi seçim suallarını necə qaldırdığını və bunu "etik süni intellekt" və maşınların düşünmək və ya əxlaqi qərarlar qəbul etmək qabiliyyəti ilə bağlı müzakirələrlə müqayisə edə bilərik.

Nizaminin "Xəmsə"sində ulduzlar, astronomiya, riyaziyyat və tibb motivləri vardır. Bu gün, elm və texnologiyanın rolu ilə, xüsusən də "dünyanı dərk etmək üçün yeni vasitə" kimi süni intellektlə müqayisə oluna bilər.

Nizami Gəncəvinin qəhrəmanları çox vaxt əxlaqi seçimlərlə üzləşirlər. Bunu "Süni intellektin məsuliyyəti" məsələsi ilə müqayisə edə bilərik: alqoritm "müdrik" və ya "ədalətli" ola bilərmi?

Nəhayət, Nizami Gəncəvinin "Xəmsə"sinə "beş modul" və ya "beş alqoritm" kimi baxmaq olar, bu alqoritmlərlə insan həyatının ən müxtəlif aspektlərini açmaq mümkündür.

Sadaladığımız müqayisələrlə bizi düşündürən vacib bir suala da cavab axtara bilərik: Süni intellekt Nizami Gəncəvi hikmətinin, poeziyasının mənəvi dərinliyini dərk edə və insanlara çatdıra bilərmi, yoxsa səthi mənalarla məhdudlaşar? Rəqəmsal alqoritmlər Nizami əsərlərinin simvolizmini, metaforasını, etik məzmununu nə dərəcədə dərk edə bilər və onların şərhi mətnin səthi reproduksiyası ilə məhdudlaşacaqmı?

Göründüyü kimi, Nizami Gəncəvinin "Xəmsə"sinin təfsirində, tədqiqində süni intellektdən istifadə imkanları və məhdudiyyətlərin təhlili özü bir aktual mövzudur.

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun alimlərinin fikirləri mövqeyindən baxarsaq:**

Süni intellekt Nizami Gəncəvi ideyalarının elmi, mənəvi və etik bələdçisi kimi: "Nizami Gəncəvi mənsub olduğu xalqın, Şərqin və geniş mənada insanlığın həyatında humanizmə və ədalətə, elmə, ağıla və idraka əsaslanmaqla, yeni bir inkişaf mərhələsi yaratmağın mümkünlüyünə inam oyatmışdır. Qədim dövr və Orta əsrlər Azərbaycan ədəbiyyatında, bəlkə də geniş mənada Şərq xalqları ədəbiyyatında Nizami Gəncəvi qədər elmi bilikləri təşviq edən, cəmiyyətin inkişafında və insanın mənəvi təkamülündə elmin roluna yüksək qiymət verən ikinci bir sənətkar göstərmək çətindir. Mütəfəkkir şairin canlandırmaq istədiyi mənəvi oyanış, humanizm və kamillik ideyaları nəticə etibarilə yaşadığı cəmiyyətin ictimai-mədəni tərəqqisinə və hərtərəfli inkişafına ünvanlanmışdır" [8].

Süni intellekt milli kimliklə müasir inkişafı birləşdirən faktor kimi:

Nizami Gəncəvi Azərbaycanın dünyaya təqdim olunan milli kimlik simvolu, dühа və zəka sərhədsizliyinin göstəricisi, kainata açılan hikmət qapısıdır. Nizami Gəncəvi mənəvi xəritəmizin bütövlüyünün və böyüklüyünün göstəricisidir [6].

Süni intellekt Nizami Gəncəvi əsərlərinin informasiya enerjisi kimi: "Nizami dünya ədəbiyyatı və fəlsəfi-estetik fikrinin elə fiqurlarındandır ki, bütün zamanları kapsayır, gənc ədiblər bütün kitablardan öncə onu oxumalıdırlar, çünki onun verdiyi informasiya enerjisi tükənməzdir" [14].

Süni intellekt Nizami Gəncəvini bəşəriyyətlə görüşdürməyin uyğun prinsiplərindən biri kimi: "Azad şəxsiyyət, müstəqil mövcudluq hüququ, əməl və iradədə sərbəstlik şairin bütün əsərlərinin ana xəttini təşkil edir. Burada nə irqi-sosial mənsubiyyət anlayışı var, nə də fərqli coğrafi məkanlara

görə qruplaşma meyilləri. Hüquq eyni olduğu kimi, bədii-fəlsəfi süjet xəttinin təmərküzləşdiyi estetik ərazi də vahiddir…Nizami özünün ahəngə, sahmana addımı ifadə edən, buna çatmağı yalnız qlobal sosial strukturda deyil, həm də fərdi-mənəvi “məndə” arayan sənəti ilə daha etalon ola bilər. Yetər ki, onu bəşəriyyətlə görüşdürməyin uyğun prinsiplərini tapa bilək. Şairin dünya, əbədiyyət (ədəbiyyat!) və bəşər kontekstində poetik qüdrət və zənginliyi ancaq bu halda görünə bilər [3].

Süni intellekt tətbiqləri ədəbiyyatşünaslığımıza dair ən müxtəlif məxəzləri, mənbələri aşkar etmək, müqayisə aparmaq, müəllifi dəqiqləşdirməkdə tədqiqatçı tərəfdaş kimi: “Professor Zajackovski bu arada XII yüzillikdə böyük şair Nizami tərəfindən orijinalını iranca tanzim etmiş olduğu və türkcə mənzuməsini tapmış 1342-ci ilə aid olduğu anlaşılan və ən əski əl yazısıyla yazılmış bu mənzumənin tərcüməsini etməyə müvəffəq olmuşdur.… Ehtimal olunur ki, bu əsərin üzü Misirdə yenidən köçürülmüş və Napoleonun əsgərləri tərəfindən Parisə aparılmışdır” [12].

Süni intellekt və Nizami Gəncəvi əsərlərinin subyektiv və obyektiv interpretasiyası[1]: Akademik İsa Həbibbəyli yazır ki, “Tam məsuliyyətlə bildirmək istəyirəm ki, Nizami Gəncəvinin əsərləri üzərində hər hansı bir eksperiment aparmaqla tam yeni əsər yaratmaq mümkün deyildir. Ya da ki, bunun üçün ən azı, Mirzə Ələkbər Sabir olmaq lazımdır. Bununla belə, düşünürəm ki, Nizami Gəncəvinin əsərlərindən seçilmiş hər müəyyən bir parçanın üzərində “sabiranə” əməliyyatlar keçirməklə, dahi şairin fikrini-ideyasını müasir dövrümüzün vəzifələrinə-mətləblərinə doğru istiqamətləndirmək üsulu ilə Nizami Gəncəvinin şəfəqlərini bu günün insanlarına çatdırmaq da faydalı addımlardan biri ola bilər” [8].

Süni intellekt Nizami Gəncəvi əsərlərinin elmi mahiyyətinin açarı kimi: “Azərbaycan ədəbiyyatının klassiki Nizami Gəncəvi yalnız şair deyil, həm də dərin fəlsəfi görüşlərə malik mütəfəkkirdir. “Nizami Gəncəvi irsində elm anlayışı və elmi kəşflərə baxış” mövzusunda məqaləsində M.Ə.Rəsulzadənin 1951-ci ildə Ankarada nəşr edilmiş “Azərbaycan şairi Nizami” kitabından bəhs edir. M.Ə.Rəsulzadənin Nizami sənətində elmi dəyərləri olan məqamları gərgin axtarışlar aparmaqla tədqiq etdiyini diqqətə çatdıran müəllifin maraqlı şərhləri əslində yeni tədqiqatçı yanaşmaları zərurəti yaradan faktlardır [13].

Gətirdiyimiz nümunələrdə ədəbiyyatşünaslığımızın süni intellektlə qovşağında yaranan yeni ideyaların, yanaşmaların, tətbiqlərin, tədqiqatların, kəşflərin elmi-texnoloji meridianlarının cizgiləri görünür:

– “Süni intellekt Nizami Gəncəvinin Xəmsəsini müasir şərhçi kimi”
– “Şərq hikməti və 21-ci əsr alqoritmləri: süni intellektin işığında “Xəmsə”
– “Rəqəmsal hermenevtika: Nizaminin Xəmsəsini süni intellektlə şərh etmək”
– “Nizamidən Neyron Şəbəkələrə: Xəmsəni Anlamaq üçün Yeni Üfüqlər”
– “Əsrlərin dialoqu: Nizami Gəncəvinin Xəmsəsi və Süni İntellekt”.

## Nəticə / *Conclusion*

Nizami Gəncəvi insan və kainat arasında harmoniya, ədalət və nizam axtarırdı. Mütəfəkkir şairin əsərlərində ədalət, humanizm, elm sevgisi, qadına hörmət, insan azadlığı kimi prinsiplər milli kimliklə universal dəyərlərin qovuşmasını göstərirdi.

Bu gün süni intellekt əxlaqi və mədəni prinsiplərlə tənzimlənməzsə, təhlükəli ola bilər. Deməli, Nizami ideyaları bu aspektdə süni intellekt üçün mənəvi və etik bələdçi rolunda çıxış edə bilər. Nizami obrazı Azərbaycan milli kimliyinin intellektual simvolu kimi keçmişimizi qoruyur, süni intellekt isə bu keçmişdən gələcəyə doğru salınmış körpüdür. Milli dəyərlərin qlobal

*[1] Subyektiv interpretasiya: Oxucu və ya tənqidçi öz şəxsi təcrübəsinə əsaslanaraq əsəri şərh edir.*
*Objektiv interpretasiya: Əsərin yazıldığı dövrün tarixi və mədəni kontekstinə əsaslanan interpretasiya.*

texnologiyalarla harmonik sintezindən yaranan bu mütənasibliyin mərkəzi yenə "qüvvət elmdədir" anlayışıdır. Süni intellektin də imkanlarının bu şəfəqləri XXI əsrin insanlarına, bəşəriyyətə ədəbiyyatşünaslıq elminin dili ilə çatdırmaqda faydalı ola biləcəyinə inanırıq.

**Ədəbiyyat / *References***


1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında 16 yanvar 2025-ci il. URL: https://e-qanun.az/framework/59218
2. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında 19 mart 2025-ci il. URL: https://president.az/az/articles/view/67937
3. Akimova Elnarə. Modern sənət prinsipləri kontekstində Nizami // "Ədəbiyyat qəzeti", 2021, 05 mart.
4. Allahverdiyeva Zəhra. Nizamişünaslığın tədqiqində yeni mərhələ // "Azərbaycan" qəzeti, 17 yanvar, 2021.
5. AMEA-nın Ümumi yığıncağında Elektron xidmətlərə dair təqdim olunacaq çıxışlar müzakirə edilib.14.02.2025... URL: https://science.gov.az/az/news/open/31594
6. Bağırlı Aygün. Nizami Gəncəvinin ictimai idealı // Nizami Gəncəvi–880: "Ədəbiyyat qəzeti"nin Xüsusi buraxılışı, 2021, 09 oktyabr.
7. Elektron Akademiya" şöbəsi Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsi adlandırılıb...11.09.2025.... URL: https://science.gov.az/az/news/open/33335
8. Həbibbəyli İsa. Nizami Gəncəvidən iqtibas //Ədəbiyyat qəzeti, 2021, 09 iyun.
9. Nizami Gəncəvi. İskəndərnamə. – Bakı: Yazıçı, 1982.
10. Nizami Gəncəvi. Sirlər xəzinəsi... URL:https://www.kitabxana.net/files/books/file/1256395690.pdf
11. Nizami Gəncəvinin "İskəndərnamə"si: Azərbaycan ədəbiyyatının şərəfnaməsi... // "Ədəbiyyat qəzeti", 2021, 24 noyabr.
12. Tahirli Abid. Şeyx Nizami lövhələri, yaxud "...təvəqqe edirəm: kamalının nöqtə qədərini bizə bəxş edəsən // "Ədəbiyyat qəzeti", 2021, 13 fevral.
13. Yaqublu Nəsiman. Nizami Gəncəvi irsində elm anlayışı və elmi kəşflərə baxış... 23.11.2021... URL: https://525.az/news/180683-nizami-gencevi-irsinde-elm-anlayisi-ve-elmi-kesflere-baxis.
14. Yusifli Cavanşir. Nizamini dərin hissiyyatlı kadrlar öyrənməlidir... https://kulis.az/news/36196
15. Nizamişünaslıq şöbəsi. URL: https://literature.az/?lang=aze&page=336&newsId=67019
16. Rəqəmsal ədəbiyyatşünaslıq, Süni intellekt və Elektron xidmətlər şöbəsi.URL: https://literature.az/?lang=aze&page=336&newsId=119952

# Искусственный интеллект, цифровое литературоведение и гуманистическая философия Низами Гянджеви

**Закира Алиева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: zakiraalieva7@gamil.com
ORCID ID 0009-0005-0586-6211

**Резюме.** Одной из основных задач, стоящих в XXI веке, является интеграция творческих ресурсов научной среды в общественную жизнь, ставшая мощным реальным информативным фактором. Прозвучавший в XII веке мудрый призыв Низами Гянджеви: «в науке сила», носящий вселенскую ценность, превратившись в ведущую общественную мысль XXI века, стал сегодняшней реальностью. Возникшим вследствие гармонического синтеза национальных ценностей с глобальными технологиями пропорциональным центром снова является понятие «в науке сила». Будет полезным донести эти зарницы возможностей искусственного интеллекта до людей XXI века, человечества языком науки литературоведения. В этом исследовании анализируется соответствие деятельности Института литературы имени Низами Гянджеви в области литературоведения и искусственного интеллекта в сфере пересечения философии Низами Гянджеви и искусственного интеллекта. В итоге говорится об умении и ответственности применения возможностей и инноваций искусственного интеллекта в области науки литературоведения XXI века. Отмечается, что наука это сила, ведущая человека и общество к совершенству, а конечное её воплощение – это искусственный интеллект.

**Ключевые слова:** Низами Гянджеви, литературоведение, Институт литературы, искусственный интеллект, этика, философия науки